

ISO 7101

Ümumi məlumat

KEYFİYYƏT®
ASSOSİASİYASI

Azərbaycanda keyfiyyətin səsi

ISO 7101:2023 standartı nədir?

ISO 7101 SƏHİYYƏDƏ KEYFİYYƏTİN İDARƏ EDİLMƏSİ ÜÇÜN İŞLƏNİB HAZIRLANMIŞ İLK BEYNƏLXALQ STANDARTIDIR. O, MİQYASINDAN, STRUKTURUNDAN, YERLƏŞDİYİ REGİONDAN ASILI OLMAYARAQ BÜTÜN TƏŞKİLATLARA TƏLƏBLƏRİ MÜƏYYƏN EDİR.

Bu standartın məqsədi təşkilatları yüksək keyfiyyətli səhiyyə xidmətlərinin göstərilməsi üçün tələblərlə təmin etmək və

- xidmət istifadəçisinin, maraqlı tərəflərin tələblərini və tətbiq oluna bilən qanunvericilik və normativ tələbləri müntəzəm olaraq yerinə yetirməklə bağlı özünün qabiliyyətini nümayiş etdirmək;
- qulluq xidmətinin davamlı olaraq göstərilməsi zamanı xidmət istifadəçilərinin təcrübəsinin artırılması və səhiyyə xidmətlərinin keyfiyyətini davamlı olaraq yaxşılaşdırmaq; və
- vaxtında, təhlükəsiz, effektiv, səmərəli, ədalətli və insanlara yönəlik qulluq xidmətinin göstərilməsini təmin edən prosesləri işlənib hazırlaya və işlək vəziyyətdə saxlaya bilmək

istəyən təşkilatların keyfiyyəti idarəetmə sistemlərinə tələblər müəyyən etməkdən ibarətdir.



"Keyfiyyət Assosiasiyası" İctimai Birliyi



Bu standartı **kim tətbiq edə bilər?**

ISO 7101 STANDARTINDA SƏHİYYƏ SEKTORUNDA FƏALİYYƏT GÖSTƏRƏN TƏŞKİLATLAR ÜÇÜN İŞLƏNİB HAZIRLANIB. STANDARTIN HƏDƏF AUDİTORİYASI KİFAYƏT QƏDƏR GENİŞDİR.

Onların siyahısına xəstəxanalar, ixtisaslaşmış klinikalar, ictimai klinikalar, tibb məntəqələri, cərrahiyyə mərkəzləri, tibb mərkəzləri və tibbi xidmətlərinin göstərilidiyi kliniki olmayan müəssisələr daxildir.

ISO 7101-in tətbiqi nə üçün vacibdir?

BU STANDART TƏŞKİLATLARA MƏHDUD RESURSLARDAN VƏ ƏHALİNİN YAŞLANMASINDAN TUTMUŞ QLOBAL PANDEMİYA KİMİ ÇAĞIRIŞLARA QƏDƏR SƏHİYYƏNİN MÜRƏKKƏB MƏSƏLƏLƏRİNİN HƏLLİNDƏ KÖMƏK EDƏ BİLƏR.

O, virtual (onlayn) səhiyyə xidmətlərinin və texniki tərəqqinin artması ilə əlaqədar mövcud şəraitə adaptasiyanın aktuallığını vurğulayaraq, vaxtında, təhlükəsiz və insanlara yönəlik qulluğa ehtiyac olduğunu qeyd edir.

Bütün dünyada səhiyyə təşkilatları maliyyə resurslarının azalması, işçi qüvvəsinin çatışmazlığı, əhalinin yaşlanması nəticəsində qulluğa ehtiyacı olan insanların sayının artması, xroniki xəstəliklərə tutulanların sayının artması, qərar qəbul etmək üçün ümumi verilənlərin yetərsizliyi, tibbi avadanlıq və dərmanların azlığı və çatışmazlığı, habelə səhiyyədə dəqiq idarəetmə sisteminin olmaması kimi ciddi təhlükələr bu beynəlxalq standartın tətbiqini şərtləndirir.



ISO 7101-in benefisiarları kimlərdir?

İLK ÖNCƏ SƏHİYYƏ TƏŞKİLATLARI VƏ ONLARIN PASİENTLƏRİNİN BU YENİ İDARƏETMƏ SİSTEMİ STANDARTININ BENEFESİARI OLMASINA BAXMAYARAQ, ONUN TƏLƏBLƏRİNƏ UYĞUN QURULAN İDARƏETMƏ SİSTEMİNİN NƏTİCƏLƏRİNDƏN BÜTÜN MARAQLI TƏRƏFLƏR (YƏNİ HƏR KƏS) FAYDALANACAQDIR.



Bu beynəlxalq standartlardan fayda əldə edəcək təşkilatlara maliyyələşdiyi mənbədən asılı olmayaraq (ictimai, özəl, təsərrüfat hesablı, qeyri-kommersiya)

- səhiyyə nazirliyi;
- dövlət və özəl səhiyyə sistemləri;
- xəstəxanalar;
- ixtisaslaşmış klinikalar;
- ictimai klinikalar;
- tibb məntəqələri;
- cərrahiyyə mərkəzləri;
- tibb mərkəzləri;
- tibbi xidmətlərinin göstərilidiyi kliniki olmayan müəssisələr və s.

müəssisə və təşkilatlar daxildir.



ISO 7101-ə görə STKİS-in elementləri hansılardır?

STKİS-İN ELEMENTLƏRİNƏ AŞAĞIDAKILAR DAXİLDİR:

- Effektivlilik;
- Səmərəlilik;
- İnsanlara yönəlmə;
- Təhlükəsizlik;
- Ədalətlilik;
- Vaxtında xidmətin göstərilməsi.

"Keyfiyyət Assosiasiyası" İctimai Birliyi

ISO 7101-in tətbiqilə hansı **faydalar** əldə etmək olar?

BU BEYNƏLXALQ STANDARTIN TƏLƏBLƏRİNƏ UYĞUN QURULAN SƏHİYYƏ TƏŞKİLATLARINDA KEYFİYYƏTİ İDARƏETMƏ SİSTEMİ (STKİS) MÜƏSSİSƏ VƏ TƏŞKİLATLAR ÜÇÜN BİR ÇOX FAYDALAR TƏQDİM EDƏ BİLƏR.

Onlardan bir qismi aşağıda verilmişdir:

- göstərilən səhiyyə xidmətlərinin keyfiyyətinin artması;
- pasientin təhlükəsizliyinin yaxşılaşması;
- xərclərin azalması və effektiv şəkildə idarə edilməsi;
- əməliyyatların effektivliyinin artması;
- risklərin azalması;
- resurslardan daha effektiv istifadə edilməsi;
- qabaqlayıcı fəaliyyətlərdən istifadə edilməsinin asanlaşması;
- təşkilatın fəaliyyətinin qanunvericiliyə və normativ tələblərə uyğunlaşdırılması;
- təşkilatın imicinin artması.



ISO 7101 və ISO 9001 arasındakı fərqlər

ISO 7101-İN STRUKTURU BEYNƏLXALQ STANDARTLAŞDIRMA TƏŞKİLATININ (ISO) YÜKSƏK SƏVİYYƏLİ İDARƏETMƏ SİSTEMİ STANDARTLARININ STRUKTURUNA ƏSASLANIR Kİ, BU DA ONUN DİGƏR İDARƏETMƏ SİSTEMİ STANDARTLARI (ISO 9001, ISO 14001, ISO 22000, ISO 45001, ISO 27001 VƏ SAİRƏ) ILƏ BİRGƏ RAHAT ŞƏKİLDƏ TƏTBİQİNİ MÜMKÜN EDİR.

ISO 7101-in əsasını ISO 9001 standartının məzmunu təşkil edir; əslində, yeni standart ISO 9001-in tələblərini genişləndirir və səhiyyə təşkilatlarının spesifik xüsusiyyətlərini nəzərə almaqla onları konkretləşdirir.

Məsələn, ISO 7101 pasientlərin və onların nümayəndələrinin müalicə prosesinə cəlb edilməsinə böyük diqqət yetirir.

ISO 9001 ilə müqayisədə ISO 7101 standartı ətraf mühitin qorunması, tibbi və məişət tullantılarının azaldılmasına yönəlik davamlı səylərin göstərilməsi, mühəndis infrastrukturu və avadanlıqlarının idarə edilməsi kimi idarəetmənin bir çox sahələri üçün daha detallı tələbləri irəli sürür.

Sənədləşdirilmiş informasiyanın idarə edilməsi maddəsində informasiya sistemlərinin və elektron formada olan informasiyanın idarə edilməsinə dair yeni tələbləri özündə ehtiva edir.

Əsas diqqət informasiya təhlükəsizliyi,



verilənlərin qorunması, informasiya sistemlərinin icazəsiz girişdən qorunması məsələlərinə yönəlib.

Yeni standartda təkcə pasientlərə deyil, həm də personala qayğı göstərilməsi məsələlərinə diqqət yetirilir. Məsələn, ISO 7101-in 8.10.6 “Birgə əməkdaşlıq” maddəsi işçilərin təkcə fiziki deyil, həm də psixoloji təhlükəsizliyinə diqqət yetirməyi və təşkilatda əlverişli mikroiqlimin yaradılmasını nəzərdə tutur. Standart açıq şəkildə bu sahədə yaxşılaşdırma planlarının olmasını tələb edir.

ISO 9001 ilə müqayisədə, ISO 7101 səhiyyədə riskə əsaslanan idarəetmə yanaşmasının inkişafına yönəlik tendensiyaları nəzərə alaraq, risklərin idarə edilməsi, o cümlədən onların sənədləşdirilməsi ilə bağlı daha sərt tələblər qoyur.

Onu da qeyd etmək lazımdır ki, standartda PDCA dövrünə əsaslanan keyfiyyət idarəetmə sisteminin modeli də dəyişikliklərə məruz qalmışdır.

PDCA idarəetmə dövründə (P – Planlaşdır, D – İcra et, C - Yoxla, A – Tədbir gör (Yaxşılaşdır) “C – Yoxla” elementi “S – Öyrən” elementi ilə əvəz olunur ki, bu da daha dəqiq ifadədir.



Beləliklə, idarəetmə qərarları yalnız yoxlama və nəzarətin nəticələrinə deyil, həm də müxtəlif məqsəd və normativ göstəricilərin öyrənilməsi və təhlilinə, habelə xarici və daxili dəyişikliklərə əsaslanır.

ISO 7101 **kim tərəfindən** işlənib **hazırlanıb**

BU SƏNƏD BEYNƏLXALQ STANDARTLAŞDIRMA TƏŞKİLATININ (ISO) 304 SAYLI “SƏHİYYƏ TƏŞKİLATININ IDARƏ EDİLMƏSİ” ADLI TEXNİKİ KOMİTƏSİNİN MÜTƏXƏSSİSLƏRİ TƏRƏFİNDƏN İŞLƏNİB HAZIRLANIB.

ISO 7101:2023 beynəlxalq standartının hazırlanmasında beynəlxalq mütəxəssis, habelə müxtəlif səhiyyə təşkilatları təmsil edən maraqlı təşkilatlar iştirak ediblər.

Əlavə məlumat

Bu kitabça Keyfiyyət Assosiasiyası İctimai Birliyi tərəfindən Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO) materialları əsasında hazırlanmışdır.

ISO 7101 beynəlxalq standartı, onun tətbiqi və sertifikatlaşdırılması ilə bağlı daha ətraflı məlumatı əldə etmək üçün Assosiasiyamıza müraciət edə bilərsiniz:

Ünvan: Babək prospekti 64d, Nizami rayonu, Bakı şəhəri

Tel.: (+994 12) 480 28 47;
Mobil: +994 55 220 94 08
www.aqa.az

Keyfiyyət Assosiasiyası İctimai Birliyi

BİZ TƏŞKİLATLARDA ISO 7101:2023 STANDARTINA UYĞUN İDARƏETMƏ SİSTEMİNİN İŞLƏNİLMƏSİ, TƏTBİQİ, MÖVCUD SİSTEMİN DAVAMLI OLARAQ YAXŞILAŞDIRILMASI, BÜTÖVLÜKDƏ FƏALİYYƏTİN TƏKMİLLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI MƏSLƏHƏT XİDMƏTİ, EYNİ ZAMANDA EFFEKTİV HƏLL VARİANTLARINI TƏKLİF EDİRİK.



Biz göstərdiyimiz məsləhət xidmətlərini ISO 7101:2023 standartının tələblərinə və mütəxəssislərimizin işlədiyi metodika və prosedurlara uyğun şəkildə həyata keçiririk.

Bizim məsləhət xidməti çərçivəsində istifadə etdiyimiz metod və alətlər təşkilatda biznes proseslərin effektivliyinin artırılmasına, idarəetmənin və təşkilatdaxili əlaqənin yaxşılaşdırılmasına, bütün fəaliyyətlər üzrə geniş monitorinq və nəzarət sisteminin qurulmasına kömək edir.

Biz məsləhət layihəsini həyata keçirərkən hazırladığımız praktik tövsiyələri təqdim etməklə təşkilatın daxili resurslar hesabına nəzərdə tutulan nəticələrə nail olunmasına, bu prosesə bütün personalın cəlb olunmasına, davamlı yaxşılaşdırma sisteminin formalaşması yolu ilə bütövlükdə təşkilati fəaliyyətin optimallaşdırılmasına çalışırıq.

